ELMİ İŞ beynəlxalq elmi jurnal. 1.518 Yüksək İmpakt Faktorlu. 2021 / Cild: 15 Sayı: 6 ISSN: 2663-4619
SCIENTIFIC WORK international scientific journal. 1.518 With High Impact Factor. 2021 / Volume: 15 Issue: 6 e-ISSN: 2708-986X

DOI: https://www.doi.org/10.36719/2663-4619/67/40-44

**Təhminə Şamil qızı Əsgərova**
Bakı Slavyan Universiteti
baş müəllim
tahminasgerova@gmail.com

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ NİZAMİ GƏNCƏVİNİN HƏYATI VƏ YARADICILIQ YOLUNUN ÖYRƏDİLMƏSİ

***Açar sözlər:*** *Nizami, yaradıcılıq yolu, ədəbiyyat, məktəb, dərs*

## Teaching Nizami Ganjavi's life and creative path in secondary schools

**Summary**

Nizami Ganjavi's life and creative activity are taught in the 8th and 10th grades of secondary schools. A teacher of literature should not only give information about the works of the great artist on the basis of program requirements, but also use the power of educational influence in his powerful poetry to accustom students to take example of the positive heroes of the poet. To do this, the teacher must arrange interesting lessons using modern learning technologies and interactive methods and create interest and love for the artistic heritage of our great poet.
***Key words:*** *Nizami, creative way, literature, school, lesson*

Ümumtəhsil məktəblərində şagirdlər Nizami Gəncəvinin zəngin yaradıcılığından nümunələrlə III, IV, V, VI, VIII, X siniflərində tanış olurlar. Böyüyən nəsildə dahi şairin ədəbiyyatımızın inkişafındakı misilsiz rolu, ölməz ideyaları haqqında dolğun təsəvvürün yaradılması bütün zamanlarda vacibdir. Doqquz yüz ilə yaxındır ki, onun zəngin irsindən "əxlaq dərsliyi" kimi istifadə olunur və neçə-neçə əsrlər bundan sonra da istifadə olunacaqdır.

Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin Nizami Gəncəvinin şərəfinə "Nizami Gəncəvi ili" elan edilməsi ölkəmizdə həm klassik ədəbi irsimizin, həm də dahi şairimizin təbliğ edilməsinə, yaddaşlarda əbədi qalmasına təkan verən bir addımdır. Bu qərar verildikdən dərhal sonra ölkəmizin hər bir yerində, eyni zamanda respublikamızın hüdudlarından kənarda da Nizami Gəncəvinin zəngin irsi, humanist ideyaları forma və məzmun cəhətdən rəngarəng tədbirlərlə daha dərindən təbliğ edilməyə başlanılıb.

Ədəbiyyat dərslərində Nizami Gəncəvinin həyat və yaradıcılığının öyrədilməsi, şagirdlərə çatdırılması gənc nəsli həyatın mənasını düzgün dərk etməyə, ədalətli, doğrucul, mübariz olmağa, insan ləyaqətini uca tutmağa sövq edir.

Məktəbdə şairin həyatı və yaradıcılığı öyrədilərkən onun həm lirik, həm də əxlaqi-didaktik əsərlərindən nümunələr gətirilməli, müzakirələr zamanı zəngin yaradıcılığının ideya-bədii xüsusiyyətləri dərindən mənimsədilməlidir. Bu zaman müəllim interaktiv təlim metodlarından və üsullarından düzgün istifadə etməlidir.

"Məlum həqiqətdir ki, orta məktəblərdə humanitar fənlər içərisində Nizami irsinin öyrədilməsi baxımından birinci yeri ədəbiyyat tutur. Lakin müşahidələr göstərir ki, bəzi qabaqcıl təcrübəyə malik olanlar istisna olmaqla ədəbiyyat müəllimləri öz dərslərində N.Gəncəvini yalnız bir şair kimi öyrədir və onun haqqında ancaq mövcud bilikləri verməyə çalışırlar. Halbuki Nizami dahi şair olmaqla yanaşı böyük mütəfəkkir-filosof, ensiklopedik biliyə malik alimdir. Onun əsərlərində həm humanitar (ədəbiyyat, dilçilik, tarix, musiqi, təsviri incəsənət və s.), həm də təbiət-riyaziyyat elmləri (fizika, həndəsə, kimya, biologiya, coğrafiya və s.) ilə bağlı çox dəyərli fikirlər, zamanı qabaqlayan ideyalar kifayət qədərdir.

Ədəbiyyat müəllimi dahi şairin əsərləri haqqında proqram tələbləri əsasında biliklər verməklə kifayətlənməməli, onun poeziyasındakı qüdrətli tərbiyəvi təsir gücündən istifadə etməyə çalışmalı, şagirdləri şairin müsbət qəhrəmanlarından örnək almağa alışdırmalıdır." (1.8)

Ümumtəhsil məktəblərini V-X siniflərində ədəbiyyat dərslərində Nizami Gəncəvinin yaradıcılığının öyrədilməsinə 11 saat vaxt ayrılır. V sinifdə "Kərpickəsən kişinin dastanı" ("Sirlər xəzinəsi") 1 saat, VI sinifdə "Yaralı bir uşağın dastanı" ("Sirlər xəzinəsi") 1saat,"Ovçu ilə itin və tülkünün hekayəti" Sinifdənxaric oxu ("Sirlər xəzinəsi") 1 saat, VIII sinifdə "Sultan Səncər və qarı"("Sirlər xəzinəsi") 3 saat, X sinifdə Nizaminin həyatı və yaradıcılıq yoluna dair monoqrafik mətnə və "İskəndərnamə" poemasının tədrisinə 5 saat vaxt ayrılmışdır.

X sinifdə Nizami Gəncəvinin həyatı və yaradıcılıq yoluna dair monoqrafik mətnin öyrənilməsinə cəmi 1 saat vaxt ayrılmışdır. Bu da şərqin ən böyük şairinin zəngin, müxtəlif ictimai və mədəni mövzuları işıqlandıran yaradıcılığı haqqında şagirdləri məlumatlandırmaq üçün çox azdır.

Bir sıra ölkələrdə yuxarı sinif şagirdləri üçün ədəbiyyat dərslikləri ilə yanaşı, klassik, dünya və müasir ədəbiyyatın nümayəndələrinin dəyərli nümunələrindən ibarət 3-4 cildlik müntəxabatlar nəşr olunur, dərsdən kənar, tövsiyəedici xarakterdə tədris olunur. Əsasən də yay tətili zamanı müxtəlif siniflərdə 10-15 müəllifin yaradıcılığından nümunələr bütöv, yaxud ixtisarla oxutdurulur.

Azərbaycan məktəbliləri ücün də belə müntəxəbatların dərc olunması günün tələbidir. X sinif dərsliyindəki monoqrafik mətndə verilmiş məlumatı çıxsaq, ədəbiyyat dərslərində şagirdlər Nizaminin cəmi iki əsərindən nümunələrlə tanış olurlar. Lakin onlar Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan digər əsərləri də oxumalıdırlar. Oxumalıdırlar ki, Nizamini daha yaxşı tanısınlar, onun dünya səviyyəli böyük azərbaycanlı olduğunu dərk etsinlər. Xalq şairi Zəlimxan Yaqubun təbirincə desək: "Nizaminin 5 əsəri, dünyanın beş qitəsidir". Hər bir azərbaycanlı bu "beş qitə"ni addım-addım gəzməlidir. Belə müntəxabatlarda dahi şairimizin ümumtəhsil məktəblərinin ədəbiyyat dərsliklərinə daxil olmayan, ancaq tədrisi zəruri olan əsərlərindən parçaların verilməsi məqsədəmüvafiq olardı.

Şairin ədəbiyyat tarixində yeri və mövqeyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlər şagirdlərə təkcə ədəbi-tarixi biliklər vermir, həm də onların milli qürur, ləyaqət və iftixar hissinin formalaşmasında fəal rol oynayır. Ədəbiyyat müəllimləri bütün bunları nəzərə almalı, dahi sənətkarın həyat və yaradıcılıq yoluna həsr edilmiş dərsi düzgün planlaşdırmağı bacarmalıdırlar.

İlk növbədə, dərsdə reallaşdırılacaq standartlar, fəndaxili və fənlərarası inteqrasiya imkanları, iş üsulu və formaları, dərsin təlim nəticələri müəyyənləşdirilməlidir. Motivasiyanın və tədqiqat sualının da düzgün qurulması çox vacibdir.

N.Gəncəvinin həyat və yaradıcılıq yolunun öyrənilməsinə həsr olunan dərsin motivasiya mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür.

Məsələn, X.R.Ulutürkün "Nizami" adlı şeiri səsləndirilir və şagirdlərdən şairin qoyduğu məntiqi suala cavab tapmaq tapşırıla bilər.

Ucalmış günəşə tunc abidəsi
Bəlkə yüz bağçada, bəlkə yüz bağda.
Məndən səkkiz əsr arxadadırmı,
Yoxsa səkkiz əsr məndən qabaqda? *(2, 418)*

Yaxud, şagirdlərdə mövzuya maraq oyatmaq, yeni biliyin yaddaqalan olması məqsədilə Bülbülün ifasında "Sevgili canan" və yaxud "Sənsiz" romanslarını,

S.Vurğunun Nizami Gəncəvi haqqında öz ifasında şeiri səsləndirmək, "Nizami" filmindən bir səhnəni, şairin əsərlərinə illüstrasiyalar, xalçalar, mozaika kimi sənət nümunələrini nümayiş etdirmək, aşağı siniflərdə keçilmiş əsərlərindən seçilmiş parçalardan və s. istifadə elmək olar.

Tədqiqatın aparılması zamanı müəllim şagirdlərin mükəmməl qrup tapşırıqları ilə tədqiqata cəlb olunmasına, bu tapşırıqların şair haqqında biliklərinin inkişafına, onların mənəvi tərbiyəsinə, düzgün nəticələrin əldə olunmasına diqqət etməlidir.

Müəllim bir sıra millətlərin Nizami Gəncəvinin onlara məxsus olduğunu iddia etməsinə diqqəti yönəltməli və bunun əsassız olduğunu şairin öz misraları ilə şagirdlərə çatdırmalıdır.

Düyməməmişdir mənim yaxamı doğma Gəncə,
Yoxsa İraq xəzinəsi qismətim idi məncə.

Dünya mənə səslənib söylədi ki, ey qulam!
Gəncəlisən, Gəncədə ömr edərək al ilham!

Yaxud:

Aləm deyir övladsan sən dünyaya, Nizami!
Sığışmazsan Gəncədə gen dünyaya, Nizami! *(3)*

Bu misralarda böyuk şairimiz bütün varlığı ilə Azərbaycanı, doğulduğu Gəncə şəhərini böyük məhəbbətlə sevdiyini və ondan ayrı yaşamadığını, özünü bu şəhərsiz təsəvvür etmədiyini qeyd etmişdir. Eyni zamanda bu böyüklüyə, bu kamilliyə, bu ucalığa böyük Nizami çox sevdiyi Gəncə şəhərində çatmışdır.

Mövzunun tədrisi zamanı "Ədəbiyyat" dərsliyində şairin həyat və yaradıcılığı ilə bağlı mətn üzrə müsahibə, müzakirə aparılması lazımdır. Müəllim şairin yaşayıb-yaratdığı dövr haqqında təsəvvür yaratmaq üçün diqqəti, ilk növbədə dərslikdəki məlumata yönəldir: "Vətəni Azərbaycanda və bütün dünyada Nizami Gəncəvi kimi tanınan dahi söz ustası İlyas Yusif oğlu Gəncə şəhərində dünyaya gəlmişdir. Azərbaycan Atabəyləri adlandırılan Eldənizlər dövləti tərəfindən idarə olunan Gəncə şəhəri həmin dövrdə iqtisadi cəhətdən sürətlə inkişaf edirdi. İpək yolunun bu şəhərdən keçməsi də onun iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir etmiş, mədəni mərkəzə çevrilməsində mühüm rol oynamışdır...

Hökmdarların himayəsində-saraylarda yaşamaqdan imtina edən şairin əsərlərindən və digər qaynaqlardan məlum olur ki, o, humanist, müdrik, gözütox bir insan kimi hələ sağlığında müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir." (4.38)

Dərsikdəki mətnlə tanış olduqdan sonra, şagirdlər bu materiallarla kifayətlənməməli, şairin yaşayıb-yaratdığı dövr haqqında tarixi məlumatları öyrənməli və həyatı və yaradıcılığı haqqında daha geniş araşdırma aparmalıdırlar. Sənətkarı əhatə edən və onun dünyagörüşünün formalaşmasına təsir edən mühit bu və ya digər dərəcədə əsərlərində də müəyyən izlər buraxır. Böyük şairimizin ədəbi və ictimai mühiti bilinməzsə, onda onun əsərlərində qaldırılan problemlər də anlaşılmayacaq. Onun həyatı və yaradıcılıq yoluna dair məlumatlar həm də canlı tariximizi, ədəbi əsərlərin yarandığı dövrü şagirdlərimizə çatdırır. Şagirdlər həmin materiallar vasitəsilə xalqımızın tarixini daha yaxşı öyrənirlər. Bunun üçün tarix dərsliklərindən, internet və əlavə mənbələrindən də istifadə edilməlidir. Bu mənbələrdən materialları seçərək, ümumiləşdirmələr aparılmalı, təqdimatlar hazırlamalıdırlar. Xatırladaq ki, dərslikdə şairin həyat və yaradıcılığına həsr olunmuş mətnə aid cəmi üç sual qoyulmuşdur.

1. Şairin yaşadığı dövrün və aldığı təlim-tərbiyənin özəllikləri hansılardır?
2. Nizami yaradıcılığa hansı əsərlərlə başlamışdır? Bu əsərlərin əsas mövzusu nə idi?
3. Şairin poemalarında diqqət daha çox hansı problemlərə cəlb edilmişdir? *(4.39)*

Müəllim bu suallar ətrafında müzakirələri daha da genişləndirməli, dövrün xüsusiyyətlərini, cəmiyyətdə gedən proseslərin şairin yaradıcılığına təsirini, Nizaminin farsca yazmasınaın səbəbini, orta əsr şeir dilinin fars dili olmasını və s. məsələləri diqqət mərkəzində saxlamalıdır. Şagirdlərə aydın olmalıdır ki, böyük şair bu ənənədən geri qala bilməzdi. Əks halda o, nə öz zəmanəsində, nə də əsrlər sonra tanınmayacaqdı. Onun ana dilindən başqa, bir neçə dili sərbəst və mükəmməl bilməsi haqda əsərlərindəki maraqlı məlumatlar da şagirdlərə çatdırılmalıdır.

Dünyada nə qədər kitab var belə
Çalışıb, əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə yeri düşərkən
Buxari, Təbəri əsərlərindən.
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəzinədən bir dürr çıxardım. *(5, 28)*

Şagirdlər ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərslikdən və digər mənbələrdən Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti (1136-1225-ci illər), Məhəmməd Cahan Pəhləvanın (1175-1186), Qızıl Arslanın (1186-1191), Əbu Bəkrin (1191-1210), Eldənizlərin köməyi ilə hakimiyyətə gələn I Axsitanın (1160-1196) hakimiyyəti dövrləri haqqında məlumatla tanış olaraq, onların Azərbaycan tarixində, bu dövrdə ədəbiyyatımızda baş verən intibahda

oynadıqları rolu müəyyən etmiş olurlar. IX-XII əsrlərdə hökmdarlar tərəfindən himayə olunan şairlər və memarlar dünya mədəniyyətinin inciləri sırasına daxil olan qiymətli əsərlər yaratdılar. XI–XII əsrlərdə isə ədəbiyyatımızda intibah baş verdi. Gəncədə Əbu Üla Gəncəvi, Qivami Gəncəvi, Məhsəti Gəncəvi kimi şairlərin olması, sənətkarlıq, ipəkçilik, xalçaçılıq, dulusçuluq və ticarətin inkişafı, ipək yolunun Gəncədən keçməsi Nizami Gəncəvi (1141-1209) kimi bir şəxsiyyətin də yetişməsində böyük rol oynadı. Bu dövrdə ədəbiyyatın ən yüksək zirvəsində Nizami yaradıcılığı dururdu. Nizami Gəncəvi yaradıcılığının tarixi proseslərlə əlaqəsi, əsərlərinin dövrün hökmdarlarına hədiyyə verməsi, bunun əsərlərin bu günümüzə gəlib çatmasındakı əhəmiyyəti müəllimin yaradıcı, təşəbbüskar fəaliyyəti və şagirdlərin araşdırmaları nəticəsində öyrənilməlidir. 1177-ci ildə bitirdiyi və şairə böyük şöhrət gətirən "Məxzənüləsrar" ("Sirlər xəzinəsi") adlı ilk poemasını Ərzincan hökmdarı Fəxrəddin Bəhram şaha, 1180-ci ildə bitirdiyi, III Toğrulun sifarişi ilə qələmə aldığı "Xosrov və Şirin" poemasını Məhəmməd Cahan Pəhləvana, 1188-ci ildə "Leyli və Məcnun" poemasını (Şərqdə ilk dəfə) Şirvan hökmdarı I Axsitana, 1196-cı ildə "Yeddi gözəl" əsərini Marağalı Ələddin Körpə Arslana, nəhayət, ömrünün sonlarına yaxın bütün ədəbi-estetik, ictimaifəlsəfi görüşlərini yekunlaşdırdığı "İsgəndərnamə"(1200-1203) poemasının birinci hissəsi "Şərəfnamə"ni Azərbaycan Atabəylərindən Nüsrətəddin Əbubəkr ibn Məhəmmədə, ikinci hissəsi "İqbalnamə"ni isə Mosul hakimi Məlik İzzəddinə ithaf etməsi, Atabəy hökmdarı Qızıl Arslanın Nizami Gəncəviyə Həmdünyan adlı kənd bağışlaması, eyni zamanda dövrün hökmdarlarının Nizami Gəncəviyə göstərdiyi diqqətin səbəbi araşdırılmalıdırlar. Bu da şairin həyat və yaradıcılığının daha da yaddaqalan olmasını təmin edir. Bu zaman interaktiv təlim texnologiyasının məqsədyönlü tətbiqi, biliklərin hazır şəkildə deyil, yaradıcı fəaliyyət, diskussiya, araşdırma nəticəsində əldə edilməsi, müəllim-şagird, şagird-şagird əməkdaşlığının təşkili vacibdir.

Dərsdə müzakirə zamanı fənlərarası inteqrasiyadan – əlavə tarixi məlumatlardan istifadə dahi Nizaminin yaradıcılığında yaşadığı dövrün və o dövrdə baş verən mühüm hadisələrin təsirini öyrənməkdə xüsusi rol oynayır. Tədqiqat zamanı şagirdlər şairin əsərlərində qaldırılan bəşəri ideyaları, qəhrəmanlarının ədalət, xalq xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə apardığını, insan şəxsiyyətinə, insan əməyinə ehtiramı, həm də onun vətənpərvərliyini öyrənməlidirlər. Anlamalıdırlar ki, dahi şair təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirməyə, vətənimizin keçmiş günlərini tərənnüm etməyə çalışmışdır.

N.Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş dərsdə müəllim həm də dahi şairin zəngin bədii irsindən ilham alaraq gözəl sənət əsərlərinin yaradılmasını da şagirdlərin diqqətinə çatdırmalı və onların müstəqil araşdırmalarına istiqamət verilməlidir. Bu zaman onlar müxtəlif mənbələrdən istifadə edərək araşdırmalıdırlar ki, Nizami Gəncəvinin mövzularında əsər yazmaq, onun "Xəmsə" sinə cavab vermək əsrlər boyu Şərq poeziyasında ənənəvi bir hal almışdır. Dünya ədəbiyyatında Nizaminin poemalarına onlarca nəzirələr yazılmışdır. Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai kimi böyük sənətkarlar Nizami Gəncəvini ustad adlandırmış, onun "Xəmsə"sinə cavab yazmaqla şairin Şərq bədii irsinə gətirdiyi qabaqcıl ənənələri davam etdirmişlər. Onun yaradıcılığı Qərbi Avropa ədəbiyyatına da təsir göstərmişdir. Avropa alimlərinin təsdiq etdikləri kimi, C.Bokaççonun "Ameto" əsəri Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının təsiri ilə yazılmışdır. Eyni zamanda şagirdlərin "Xəmsə"nin Britaniya muzeyində saxlanılan 1539-1543-cü illərə aid əlyazmasında Sultan Məhəmmədin, Mirzəəlinin, Mir Seyid Əlinin çəkdikləri miniatürlər, şairin sözlərinə bəstələnmiş mahnı və romanslar, Azərbaycanın məşhur rəssamlarından M. Abdullayev, K.Kazımzadə, L.Kərimov və başqa rəssamların Nizami Gəncəvinin əsərlərinə çəkdikləri illüstrasiyalar, toxuduqları xalçalar, poemalarının süjeti əsasında yaranan operalar, baletlər, simfonik poemalar, həyatına həsr olunmuş ədəbi əsərlər, İ.Hüseynovun "Nizami" ssenarisi əsasında "Nizami" bədii filmi, Ə.Bədəlbəylinin "Nizami" operası, onlarla məşhur rəssamın şəkdiyi portretlər, xatirəsinə ucaldılan heykəllər haqqında da məlumat toplamaları məqsədəmüvafiqdir.

Yaradıcı tətbiqetmə mərhələsində bilik və bacarıqların yeni situasiyada fərqli təlim materialı üzrə tətbiqi nəzərdə tutulur. İnteraktiv dərsdə vaxt imkanının məhdudluğu nəzərə alınaraq, əgər vaxt qalmazsa, bunun ev tapşırığı şəklində də həyata keçirilməsi mümkündür. Bu zaman aşağıdakı tip tapşırıqlardan istifadə etmək olar:

1.N.Gəncəvinin təsvir etdiyi dövrdəki hansı qüsurları aradan qaldırmaq istərdiniz?

2.“N.Gəncəvinin “____________” əsərini daha çox sevdim.” mövzusunda təqdimat hazırlayın.

3.N.Gəncəvinin əsərlərində xalq nağıl və dastanlarının təsirini nümunələrlə izah edin.

4.“------------- əsərindən bəyəndiyiniz bəndləri seçib aşağıdakı cədvəlin 1-ci sütununa yazın. İkinci sütunda bəndi nə üçün bəyəndiyinizi əsaslandırın. (İki hissəli gündəlik)

5.“N.Gəncəvinin yaradıcılığında ən çox bəyəndiyim əsər.” (Ədəbi məktub)

6.Nizaminin hansı şeiri və ya poeması sizdə güclü təəssürat yaratdı, nə üçün?- fikirlərinizi qısa bir təqdimat yazmaqla əsaslandırmağa çalışın.

7. Nizami yaradıcılığının ümumxalq sevgisi qazanması nə ilə əlaqədardır? Fikirlərinizi əsaslandırın.

8. N.Gəncəvinin ----------- əsərlərindəki müsbət obrazların ortaq xüsusiyyətlərini müəyyənləşdirin.

9. N.Gəncəvinin əsərlərinin oxşar cəhətlərini müəyyənləşdirin.

10. N.Gəncəvinin ------------- əsərini mövzu və ideyası ilə səsləşən deyimlərlə şaxələndirməni tamamlayın.

11. N.Gəncəvinin əsərlərində təbliğ edilən müsbət mənəvi-əxlaqi keyfiyyətlərin bu gün üçün də aktuallığını əsaslandırın və s.

Nizaminin həyatı və yaradıcılıq yolu haqqındakı dərsdə şagirdlər onun keçdiyi ömür yolu ilə tanış olurlar, dahi şairimizin bədii irsinə maraq və məhəbbətləri artır, bu qənaətə gəlirlər ki, böyük sənətkar özündən sonra gələn nəsillərə ölməz əsərlər qoyub gedərək əbədiyaşarlıq, mənəvi ölməzlik qazanmışdır.

## References


1. Apoyev B. The system of using the heritage of Nizami Ganjavi in the pedagogical process. Baku, “Mutarcim” publishing house, 2012, 203 p.
2. Ulutürk H.R. Between the moon and the sun, Baku, “Yazichi” publishing house, 1992, 560 p.
3. https://www.ens.az/en/nizami-gencevi-sirler-xezinesieserin-bitmesi
4. Aliyev S., Hasanov B., Mustafayeva A. Textbook on the subject of Literature for the 10th grade of secondary schools, 2018, “Baku” publishing house, 208 p.
5. Nizami Ganjavi, Seven beauties, Baku, “Lider” publishing house, 2004, 336 p.


**Rəyçi: prof. L.İmaməliyeva**

Göndərilib: 11.06.2021 Qəbul edilib: 18.06.2021